# KORONAVİRUS (COVID-19) xəstəliyi

## Sarımsaq yeni koronavirus infeksiyasından qoruyur?



Sarımsaq mikrob əleyhinə müəyyən xüsusiyyətlərə malikdir və sağlamlıq üçün faydalı məhsuldur. Yeni koronavirus ilə yoluxmanın qarşısını almaq üçün sarımsaqdan istifadənin effektiv təsirinə dair heç bir dəlil yoxdur.

## Ultrabənövşəyi dezinfeksiya lampasının (UB lampası) yeni koronavirusu məhv edə biləcəyi doğrudur?



UB lampaları əllərin və ya dərinin digər sahələrinin sterilizasiyası üçün istifadə edilməməlidir, çünki ultrabənövşəyi şüa dəridə qıcıqlanmanın əmələ gəlməsinə səbəb ola bilər.

## Yeni koronavirus infeksiyasının qarşısını almaq və ya müalicə etmək üçün xüsusi dərmanlar var?



Hazırda, yeni koronavirusun profilaktikası və ya müalicəsi üçün tövsiyə olunan dərmanlar yoxdur. Bununla belə, yoluxmuş şəxslərə simptomları yüngülləşdirmək və aradan qaldırmaq üçün lazımi tibbi yardım göstərilməli, ağır xəstəlikləri olanlar isə müvafiq dəstəkləyici müalicə almalıdırlar. Hazırda, yeni koronavirusa qarşı xüsusi dərmanlar hazırlamaq üçün işlər aparılır və onlar klinik sınaqlardan keçməlidir. Ümumdünya Səhiyyə Təşkilatı bir sıra tərəfdaş qurumlarla birlikdə, yeni dərmanlara dair tədqiqat və hazırlanma işlərini sürətləndirməyə kömək edir.



**9 sual**

**9 cavab**

İSİM İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, H.Zərdabi küç.,96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

Buklet Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanaraq çap olunmuşdur.

## Elektrik əl qurutma cihazlarının yeni koronavirusu məhv edə biləcəyi doğrudur?



**Xeyr.** Elektrik əl qurutma cihazları koronavirusu öldürmür. Yeni koronavirus infeksiyasının qarşısını almaq üçün əllərinizi spirt tərkibli antiseptiklə mütəmadi təmizləməli və ya sabunla yumalısınız. Yuyulmuş əllər kağız dəsmal, yaxud elektrik əl quruducusu ilə yaxşıca qurudulmalıdır.

## Çindən məktub və ya bağlama almaq təhlükəsizdir?



**Bəli, təhlükəsizdir.** Çindən bağlama alaraq, yeni koronavirusla yoluxmaq riskiniz yoxdur. Əvvəlki tədqiqatlar koronavirusların zərflər və ya poçt bağlamaları kimi əşyalarda uzun müddət yaşamadığını göstərdi.

## Burunun duzlu məhlul ilə müntəzəm yuyulması yeni koronavirus ilə yoluxmadan qoruya bilər?



**Xeyr.** Burunun duzlu məhlul ilə müntəzəm yuyulması yeni koronavirus infeksiyasından qorunmağa kömək etdiyinə dair heç bir elmi sübut yoxdur. Bəzi məlumatlara görə, burunun duzlu məhlul ilə müntəzəm yuyulması ümumi soyuqdəymədən sağalmanı sürətləndirə bilər. Bununla belə, tənəffüs yolları infeksiyalarının qarşısını almaq üçün bir vasitə olaraq burunun yuyulmasının effektivliyinə dair heç bir dəlil yoxdur.

## Doğrudurmu, bədən səthinə spirt və ya xlor püskürtməklə yeni koronavirus məhv olur ?



**Xeyr.** Bütün bədənə spirt və ya xlor püskürtmək artıq orqanizmə daxil olmuş virusları məhv etməyəcək. Bu cür maddələrin püskürdülməsi geyim və selikli qişalara (yəni, gözlər, ağız) zərər yetirə bilər. Həm spirt, həm də xlor səthləri dezinfeksiya etmək üçün təsirli vasitədir, lakin onlar müvafiq hallarda və qaydalara uyğun olaraq istifadə edilməlidir.

## Antibiotiklər yeni koronavirus infeksiyasının qarşısının alınmasında və müalicəsində təsirlidir?



**Xeyr,** antibiotiklər viruslara təsir etmir. Onlar yalnız bakterial infeksiyaları müalicə etməyə imkan verir. Yeni koronavirus məhz virus mənşəli olduğuna görə onun qarşısını almaq və müalicə etmək üçün antibiotiklərdən istifadə edilməməlidir. Lakin yeni koronavirus ilə xəstəxanaya yerləşdirilən pasiyentlərə yanaşı gedən bakterial infeksiyaları müalicə etmək üçün antibiotiklər təyin edilə bilər.

## Yalnız yaşlı insanlar yeni koronavirusa yoluxa bilərlər?



Bütün yaş kateqoriyalarının nümayəndələri yeni koronavirusa yoluxa bilərlər. Belə görünür ki, yaşlı insanlar və müəyyən xəstəlikləri (məsələn, astma, şəkərli diabet, ürək xəstəliyi) olan şəxslər arasında koronavirus infeksiyasının ağır formalarının yaranma riski yüksəkdir. Ümumdünya Səhiyyə Təşkilatı hər yaşda olan insanlara əl yuma qaydalarına və öskürməklə bağlı gigiyenaya riayət etməklə yoluxmadan qorunmaq üçün tədbirlər görməyi tövsiyə edir.